MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# QEYRİ-MADDİ MƏDƏNİ İRS

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov ..... 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov ..... 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli ..... 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi ..... 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi ..... 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva ..... 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov ..... 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu ..... 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva ..... 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov ..... 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov ..... 286

FOTOLAR ..... 290

# ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ İDENTİKLİK KONTEKSTİNDƏ

**Pərvin Ahənçi**
tarix üzrə fəlsəfə doktoru, dosent
Qarabağ Universiteti,
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
https://doi.org/10.30546/19023.2026.1001.378

**Giriş.** Novruz mərasimləri yalnız mövsümi bayram və folklor ənənəsi deyil, kollektiv yaddaşın formalaşdığı, sosial identikliyin möhkəmləndiyi və mədəni praktikaların zamanla qeyri-maddi mədəni irs formasına çevrildiyi kompleks ritual sistemidir. Bu baxımdan Novruz yalnız təqvim hadisəsi və ya mövsümi mərasimlər kimi deyil, həm də cəmiyyətlərin sosial yaddaşını və mədəni davamlılığını ifadə edən mühüm mədəni fenomen kimi qiymətləndirilə bilər.

Novruz bayramı Azərbaycan və ümumilikdə Qafqaz, Yaxın və Orta Şərq, Mərkəzi Asiya və Cənubi Asiya mədəni məkanında geniş yayılmış, çoxəsrlik tarixə malik mərasim ənənələrindən biridir. Bu bayram müxtəlif xalqları və mədəniyyətləri birləşdirən transmilli mədəni fenomen kimi qəbul olunur. Novruzun 2009-cu ildə YUNESKO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Siyahısına daxil edilməsi onun beynəlxalq səviyyədə tanınmasına və elmi marağın artmasına səbəb olmuşdur [20]. Bu qərar Novruzu müxtəlif xalqlar və mədəniyyətlər arasında paylaşılmış mədəni irs nümunəsi kimi təqdim edir və onun mədəni irs, identiklik və mədəni diplomatiya kontekstində araşdırılması üçün yeni analitik perspektivlər açır.

Məqalədə Novruzun müxtəlif tarixi və mədəni qatları da nəzərdən keçirilir. Təqvim və təbiət dövrləri ilə bağlı ən qədim təsəvvürlərdən başlayaraq, kosmoloji düşüncə və erkən dini elementlərin mərasimlər simvolikasına necə təsir etdiyi izah olunur. Lakin burada əsas diqqət Novruzun dini mənşəyinə deyil, onun zamanla formalaşmış mədəni və sosial funksiyasına yönəldilir. Bu baxımdan Novruz mərasimləri dini mərasimdən daha çox, kollektiv yaddaşın və sosial davamlılığın ifadə olunduğu kompleks mədəni ritual sistemi kimi qiymətləndirilir.

Son onilliklərdə ritual və mərasimlərin öyrənilməsində kollektiv yaddaş və mədəni irs yanaşmaları xüsusi əhəmiyyət qazanmışdır. Ritual nəzəriyyəsinin klassik tədqiqatlarında kollektiv mərasimlərin sosial həmrəyliyin və kollektiv şüurun formalaşmasında mühüm rol oynadığı göstərilmişdir [5, s. 217-223; 18, s. 94-130; 2, s. 93-117]. Həmin yanaşmalara görə mərasimlər yalnız folklor elementləri deyil, həm də cəmiyyətlərin mədəni biliklərini və sosial identikliyini nəsildən-nəslə ötürən mühüm sosial mexanizmlərdir. Bu kontekstdə Novruz ənənəvi mövsümi bayram kimi deyil, kollektiv yaddaşı qoruyan, sosial həmrəyliyi möhkəmləndirən və mədəni identikliyi ifadə edən strukturlaşmış ritual sistemi kimi təhlil edilə bilər.

Kollektiv yaddaş nəzəriyyəsi də mərasimlərin sosial funksiyasını izah edən mühüm metodoloji çərçivə təqdim edir. Moris Halbvaks kollektiv yaddaşın fərdi xatirələrin sosial mühitdə formalaşdığını göstərmişdir [8, s. 38-52]. Yan Assmann isə mədəni yaddaş anlayışı vasitəsilə kollektiv xatirələrin ritual praktikalar və simvolik formalar vasitəsilə uzunmüddətli sosial davamlılıq qazandığını vurğulamışdır [1, s. 36-47]. Bu nəzəri yanaşmalar mərasimlərin yalnız mədəni ənənə deyil, həm də sosial yaddaşın qorunması və ötürülməsi mexanizmi olduğunu göstərir.

Eyni zamanda mədəni irs tədqiqatlarında ənənəvi mədəni praktikaların zamanla "irs" statusu qazanması prosesi xüsusi diqqət mərkəzinə çevrilmişdir. Bu istiqamətdə aparılan tədqiqatlarda qeyd olunur ki, mədəni irs yalnız keçmişdən miras qalan sabit bir fenomen deyil, həm də sosial və mədəni

proseslər vasitəsilə formalaşan dinamik bir konstruksiyadır. Barbara Kirshenblatt-Gimblett mədəni irsi "mədəni istehsal prosesi" kimi şərh edərək göstərir ki, müəyyən praktikalar və simvolik formalar xüsusi sosial və institusional kontekstlərdə irs kimi təqdim olunur və beləliklə yeni məna qazanır [12; 13]. Lauraceyn Smit və Rodney Harrison da mədəni irsin yalnız qorunan obyektlərdən ibarət olmadığını, əksinə sosial münasibətlər və kollektiv yaddaş vasitəsilə daim yenidən mənalandırılan mədəni proses olduğunu vurğulayırlar [17; 9].

Nəzəri yanaşmalar mədəni praktikaların zamanla irs statusu qazanmasını izah edən mühüm analitik çərçivə təqdim edir. Həmin çərçivə əsasında məqalədə "ənənədən irsə" analitik yanaşması irəli sürülür. Azərbaycan kontekstində müəllif tərəfindən təklif olunan model Novruz mərasimlərinin mövsümi mədəni praktikadan kollektiv yaddaş və nəsillərarası ötürülmə vasitəsilə qorunan qeyri-maddi mədəni irs formasına transformasiya prosesini izah edir.

Lakin mövcud ədəbiyyatın böyük hissəsi Novruzun mifoloji və folklor aspektlərinə etnoqrafiya çərçivəsində diqqət yetirsə də, bu mərasimlərin kollektiv yaddaşın formalaşmasında oynadığı rolu və sosial identikliyin qurulmasındakı funksiyasını araşdıran tədqiqatlar nisbətən azdır. Bu məqalə məhz həmin analitik boşluğu doldurmağı məqsəd qoyur və Novruzu kollektiv yaddaşın qorunması, sosial identikliyin möhkəmləndirilməsi və mədəni davamlılığın təmin edilməsi baxımından təhlil edir.

Novruz mərasimlərinin öyrənilməsi ilə bağlı mövcud elmi ədəbiyyat əsasən etnoqrafik və folklorşünaslıq istiqamətində formalaşmışdır. Bir çox tədqiqatlarda Novruzun mifoloji kökləri, təbiət kultları ilə əlaqəsi və mərasimlərin atributlarının folklor semantikası araşdırılmışdır [21; 22; 23]. Azərbaycan folklorşünaslığında Novruz mərasimləri xalq təqvim sistemi, mövsümi mərasimlər və xalq inancları kontekstində geniş şəkildə tədqiq edilmişdir. Bununla yanaşı, beynəlxalq tədqiqatlarda da Novruz əsasən qədim kosmoloji təsəvvürlər, zərdüştilik ənənələri və mövsümi ritual sistemləri ilə əlaqələndirilmişdir.

"Ənənədən irsə" konseptinə əsaslanan bu yanaşma Novruzun mövsümi mədəni praktikadan əsrlər ərzində nəsillərarası ötürülmə vasitəsilə qorunan qeyri-maddi mədəni irs formasına necə çevrildiyini izah etməyə imkan verir. Tonqal, su, səməni və bayram süfrəsi kimi maddi atributlar mərasimlərin yalnız görünən elementləri deyil; onların əsas əhəmiyyəti daşıdıqları simvolik məzmun və hər il təkrarlanan ritual praktikalar vasitəsilə kollektiv yaddaşı aktivləşdirmə funksiyasında ifadə olunur. Bu kontekstdə məqalədə təklif olunan "ənənədən irsə" analitik modeli Novruz mərasimlərinin yalnız folklor və ya etnoqrafik ənənə kimi deyil, kollektiv yaddaş və ritual davamlılıq vasitəsilə zamanla qeyri-maddi mədəni irs statusu qazanan dinamik mədəni proses kimi izah edilməsini nəzərdə tutur.

Tədqiqatın əsas məqsədi Novruz mərasimlərinin kollektiv yaddaş və identiklik kontekstində hansı rol oynadığını araşdırmaqdır. Bu çərçivədə aşağıdakı əsas suallar irəli sürülür:

- Novruz mərasimləri cəmiyyətin kollektiv yaddaşında hansı rol oynayır?

- Ritual praktikalar nəsillərarası mədəni ötürülməni necə təmin edir?

- Məcburi köçkünlük və məkan itkisi şəraitində Novruz kollektiv identikliyin qorunmasına hansı şəkildə təsir göstərir?

Bu suallara cavab vermək üçün məqalədə Novruz mərasimləri tarixi, sosial və mədəni perspektivlərdən təhlil olunur. Əvvəlcə ritual və kollektiv mərasim mədəniyyəti anlayışları nəzəri çərçivədə təqdim edilir; daha sonra Novruzun tarixi və kosmoloji qatları, o cümlədən çərşənbə mərasimlərinin simvolik strukturu araşdırılır.

Novruz mərasimlərinin tarixi inkişafı müxtəlif siyasi və sosial kontekstlərdə transformasiyaya

məruz qalmışdır. Xüsusilə Sovet dövründə rəsmi ideoloji diskurs Novruzu dini və "köhnə" ənənə kimi təqdim etməyə çalışmış, bu səbəbdən mərasimlər uzun müddət rəsmi səviyyədə məhdudlaşdırılmışdır. Buna baxmayaraq, Novruz mərasimləri ailə və icma mühitində yaşadılmağa davam etmiş və bu proses kollektiv yaddaşın sosial gücünü nümayiş etdirmişdir. Beləliklə, Novruz yalnız rəsmi şəkildə təşkil olunan bayram deyil, həm də gündəlik həyat praktikaları daxilində qorunan mədəni ritual sistemi kimi çıxış etmişdir.

Məcburi köçkünlük və məkan itkisi kontekstində Novruzun yaşadılması mərasimlərin başqa bir mühüm aspektini ortaya qoyur. Qarabağ münaqişəsi nəticəsində yaranmış kütləvi məcburi köçkünlük şəraiti Novruz mərasimlərinə əlavə sosial və emosional məna qazandırmışdır. Məcburi köçkün və qaçqın icmalar üçün Novruz yalnız mövsümi mərasimlər deyil, həm də məkan itkisi şəraitində kollektiv yaddaşın və mədəni davamlılığın qorunmasına xidmət edən mühüm sosial mexanizmə çevrilmişdir. Doğma torpaqlarını tərk etmək məcburiyyətində qalan ailələr müvəqqəti yaşayış yerlərində, yeni şəhər mühitində, köçkün qəsəbələrində və hətta qaçqın çadırlarında belə Novruz mərasimlərini davam etdirərək öz mədəni kimliklərini və kollektiv xatirələrini yaşatmışlar. Bu baxımdan Qarabağdan məcburi köçkün düşmüş icmaların və Ermənistan ərazisində etnik təmizləmə nəticəsində didərgin düşmüş azərbaycanlı qaçqınların təcrübəsi Novruz mərasimlərinin kollektiv yaddaşın qorunmasında oynadığı rolu anlamaq üçün mühüm elmi əhəmiyyət kəsb edir.

Məqalədə xüsusi olaraq Şuşa şəhəri və onun ətraf kənd icmalarından olan məcburi köçkünlərin narrativlərinə diqqət yetirilir. Bu seçim müəllifin [24, s. 50-65] uzunmüddətli sahə tədqiqatları və apardığı şifahi tarix müsahibələri ilə bağlıdır. Bununla yanaşı, müəllifin yaddaşında həkk olunmuş Şuşa məhəllə mühitində Novruz mərasimlərinin ənənəvi şəkildə qeyd edilməsinə dair şəxsi müşahidə və xatirələri də tədqiqatın interpretativ perspektivini genişləndirir. Şuşalı məcburi köçkünlərin xatirələri göstərir ki, Novruz doğma məkan itirildikdən sonra belə kollektiv identikliyin qorunmasında mühüm rol oynamağa davam etmişdir.

Bu kontekstdə Novruz mərasimləri yalnız bayram deyil, həm də itirilmiş məkanın simvolik xatırlanması və kollektiv yaddaşın yenidən qurulması vasitəsinə çevrilir. Məcburi köçkün və qaçqınların məruz qaldıqları kütləvi zorakılıq və kollektiv travmaya baxmayaraq, onların məskunlaşdıqları yeni ərazilərdə formalaşan sosial-mədəni şərait Novruz mərasimlərinin kollektiv yaddaşın yaşadılması və nəsillərarası mədəni davamlılığın qorunmasında oynadığı rolu daha dərindən anlamağa imkan verir. Beləliklə, Novruz mərasimləri məcburi köçkünlük və məkan itkisi şəraitində belə kollektiv yaddaşın qorunması və mədəni identikliyin davamlılığının təmin edilməsi üçün mühüm sosial-mədəni mexanizm kimi çıxış edir.

Beləliklə, məqalədə Novruz mərasimləri yalnız mədəni ənənə kimi deyil, kollektiv yaddaşın, identikliyin və sosial davamlılığın formalaşdığı kompleks ritual sistemi kimi təhlil edilir. Təklif olunan yanaşma Novruzun tarixi mənbə kimi oxunması üçün metodoloji model təqdim edir və qeyri-maddi mədəni irsin öyrənilməsi üçün yeni analitik perspektivlər açır. Bu baxımdan Novruz mərasimləri kollektiv yaddaşın formalaşması, qorunması və nəsillərarası ötürülməsi proseslərini təhlil etmək üçün mühüm analitik çərçivə kimi nəzərdən keçirilir.

**Bayram anlayışı və kollektiv mərasim mədəniyyəti.** Bayram və mərasimlər insan cəmiyyətlərinin mədəni həyatında xüsusi yer tutan sosial hadisələrdir. Onlar yalnız müəyyən tarixi və ya mövsümi hadisələrin qeyd olunması ilə məhdudlaşmır, eyni zamanda cəmiyyətin kollektiv yaddaşını, sosial münasibətlərini və mədəni identikliyini formalaşdıran mühüm mədəni institutlar kimi çıxış edirlər. Antropologiya və sosiologiya tədqiqatlarında bayram və mərasimlər sosial həyatın ritmini müəyyən edən və kollektiv təcrübəni təşkil edən mədəni praktikalar kimi şərh olunur [5, s. 217-223; 2, s. 93-117]. Bu baxımdan bayramlar kollektiv həyatın ritmini müəyyən edən və sosial zamanın strukturlaşdırılmasına xidmət edən simvolik fəaliyyət formaları kimi qiymətləndirilə bilər.

Ritual anlayışı bu proseslərin izahında mühüm yer tutur. Ritual adətən müəyyən simvolik hərəkətlər, qaydalar və təkrarlanan davranış formalarından ibarət olan mərasimlər praktikasını ifadə edir. Ritual praktikalar vasitəsilə cəmiyyət öz mədəni dəyərlərini və sosial normalarını yenidən təsdiq edir və kollektiv identikliyini nümayiş etdirir. Ketrin Bell ritualın yalnız dini və ya folklor fenomeni olmadığını, əksinə sosial münasibətlərin və mədəni mənaların strukturlaşdırıldığı fəaliyyət forması olduğunu qeyd edir [2, s. 81-93]. Bu baxımdan ritual yalnız dini və ya folklor hadisəsi deyil, sosial münasibətlərin və mədəni mənaların ifadə olunduğu strukturlaşmış fəaliyyət formasıdır.

Ritualların sosial funksiyasını izah edən klassik tədqiqatlarda onların kollektiv həmrəyliyin formalaşmasında oynadığı rol xüsusi vurğulanır. Emile Durxeym kollektiv mərasimlərin cəmiyyət daxilində sosial birliyi möhkəmləndirdiyini və iştirakçılar arasında ortaq emosional təcrübə yaratdığını göstərmişdir. Onun fikrincə, kollektiv mərasimlər zamanı yaranan emosional yüksəliş - "kollektiv coşqu" (collective effervescence), cəmiyyət üzvlərinin özlərini vahid sosial birlik kimi dərk etməsinə kömək edir və kollektiv şüurun yenidən təsdiq olunmasına xidmət edir [5, s. 217-223].

Victor Törner isə ritual prosesinin sosial transformasiya və keçid mərhələləri ilə bağlı aspektlərini araşdıraraq mərasimlərin cəmiyyət daxilində həm sosial nizamın möhkəmlənməsinə, həm də onun yenilənməsinə xidmət etdiyini göstərmişdir. Törner ritual mərhələlərində yaranan kollektiv iştirak mühitini xüsusi sosial vəziyyət kimi təsvir edir və bu vəziyyətin iştirakçılar arasında müvəqqəti sosial bərabərlik və birlik hissi yaratdığını vurğulayır [18, s. 94-130]. Bu yanaşmaya görə ritual yalnız ənənənin təkrarı deyil, həm də kollektiv təcrübənin yenidən qurulduğu sosial prosesdir.

Bu yanaşmalar göstərir ki, kollektiv mərasimlər yalnız müəyyən hadisələrin simvolik şəkildə qeyd olunması deyil, eyni zamanda cəmiyyətin sosial zamanını və kollektiv təcrübəsini təşkil edən mühüm mexanizmlərdir. Bayramlar vasitəsilə cəmiyyət müəyyən dövrləri və hadisələri kollektiv şəkildə xatırlayır, keçmişlə əlaqə yaradır və gələcək üçün ortaq mənalar formalaşdırır.

Kollektiv mərasimlər sosial zaman anlayışının formalaşmasında da mühüm rol oynayır. Bayram və mərasimlər təqvim vaxtını sosial və mədəni məna ilə zənginləşdirərək cəmiyyətin zaman qavrayışını strukturlaşdırır. Sosial antropologlar qeyd edirlər ki, mövsümi mərasimlər təbiətin dövri dəyişikliklərini sosial həyatla əlaqələndirərək kollektiv həyatın ritmini müəyyən edir və cəmiyyət üzvlərinə zamanın keçid mərhələlərini kollektiv şəkildə yaşamaq imkanı yaradır [2, s. 101-106; 1, s. 36-47].

Bu kontekstdə Novruz bayramı kollektiv mərasim mədəniyyətinin ən parlaq nümunələrindən biri kimi çıxış edir. Yazın gəlişini və təbiətin yenilənməsini simvolizə edən Novruz eyni zamanda sosial və mədəni yenilənmə ideyasını ifadə edən kompleks ritual sistemidir. Bayramın strukturunda yer alan müxtəlif mərasim elementləri: çərşənbələr sistemi, tonqal mərasimləri, bayram süfrəsi, səməni və digər simvolik atributlar kollektiv yaddaşın və mədəni davamlılığın ifadə formaları kimi çıxış edir. Novruz yalnız mövsümi bayram deyil, kollektiv mərasim mədəniyyətinin strukturlaşdırılmış modelidir. Onun ritual strukturu kollektiv iştirak, simvolik hərəkətlər və nəsillərarası ötürülmə vasitəsilə cəmiyyətin mədəni yaddaşını aktivləşdirir və sosial identikliyin davamlılığını təmin edir. Məhz bu səbəbdən Novruz mərasimləri yalnız folklor və etnoqrafiya çərçivəsində deyil, həm də kollektiv yaddaş və mədəni irs kontekstində təhlil edilməlidir.

Bu nəzəri çərçivə Novruz mərasimlərinin tarixi və simvolik strukturunun daha dərindən araşdırılması üçün əsas yaradır. Növbəti bölmədə Novruzun kosmoloji və təqvim əsasları, çərşənbə mərasimlərinin simvolik məzmunu və bayramın ritual strukturu daha ətraflı təhlil ediləcəkdir.

**Novruzun tarixi qatları.** Novruz bayramının mənşəyi və inkişafı uzunmüddətli tarixi proseslərin nəticəsi kimi formalaşmışdır. Bu mərasimlərin müxtəlif dövrlərdə yaranmış kosmoloji təsəvvürlərin, təbiət dövrləri ilə bağlı müşahidələrin və təqvim sistemlərinin sintezini əks etdirir.

Buna görə də Novruz yalnız mövsümi bayram deyil, həm də qədim dünyagörüşünün və sosial zaman anlayışının mədəni ifadəsi kimi qiymətləndirilə bilər.

**Təqvim və zaman anlayışı.** Novruz ənənəvi olaraq yazın və yeni təqvim ilinin başlanğıcı kimi qeyd olunur. Astronomik baxımdan bu tarix Günəşin yaz bərabərliyi nöqtəsinə çatdığı günlə: gecə və gündüzün bərabərləşdiyi vaxtla əlaqələndirilir. Bu hadisə qədim cəmiyyətlərdə təbiətin yenilənməsi və yeni həyat dövrünün başlanğıcı kimi qəbul olunmuşdur. Tarixçilər və etnoqraflar qeyd edirlər ki, bir çox qədim mədəniyyətlərdə təqvim sistemləri məhz təbiətin dövri dəyişikliklərinə əsaslanmışdır [3, s. 45-47].

Şərq mədəni arealında formalaşmış təqvim ənənələrində yaz bərabərliyi yeni ilin başlanğıcı kimi qəbul edilmiş və bu tarix ətrafında müxtəlif mərasim və ritual praktikalar yaranmışdır. Riçard N. Frye qeyd edir ki, Novruz yalnız təqvim hadisəsi deyil, həm də siyasi və sosial həyatın mühüm mərhələsini ifadə edən bayram kimi qəbul olunmuşdur [7, s. 62-65]. Bu baxımdan Novruz təqvim hadisəsindən daha geniş məna daşıyaraq sosial həyatın yenilənməsini simvolizə edən mərasimlər sisteminə çevrilmişdir. Azərbaycan və ümumilikdə türk dünyasında Novruzun təqvim funksiyası xalq təqvim sistemi ilə sıx bağlıdır. Xalq təqvimi çərçivəsində yazın gəlişi və təbiətin oyanışı müxtəlif mərasimlər və inanclar vasitəsilə qeyd olunur. Bu sistemdə Novruz yalnız bir günlə məhdudlaşmır, əksinə bir neçə həftə davam edən mərasimlər kompleksini əhatə edir.

**Təbiətin yenilənməsi və sosial identiklik: Novruz mərasimlərinin antropoloji konsepti.** Novruz mərasimlərinin formalaşmasında təbiət dövrlərinin müşahidəsi əsas rol oynamışdır. Qədim cəmiyyətlərdə yazın gəlişi yalnız ekoloji hadisə kimi deyil, torpağın oyanması, əkin mövsümünün açılması və yeni həyat dövrünün başlanması ilə əlaqələndirilirdi. Təkcə qədim dövrlərdə deyil, bütün zamanlarda təbiətin dəyişməsi insanların sosial həyatının ritmini, gündəlik davranışlarını və kollektiv yaddaşını formalaşdıran başlıca amillərdən biri kimi dəyərləndirilmişdir.

Bu yanaşma Jan Assmannın "mədəni yaddaş" (cultural memory) - kollektivlərin öz keçmişlərini yalnız yazılı mənbələr və tarixi faktlarla deyil, həm də simvolik, ritual və təkrar olunan praktikalar vasitəsilə yadda saxlaması - konsepti ilə səsləşir. Belə ki, təbiət hadisələri yalnız ekoloji proses kimi deyil, həm də kollektiv yaddaşın ritmik strukturlarını müəyyən edən simvolik başlanğıc nöqtələri kimi qəbul edilir [1, s. 36]. Pol Konnertonun "təcəssüm etdirən praktikalar" (embodied practices) və ritual praktikalar (ritual practices) anlayışları göstərir ki, sosial yaddaş təcəssüm etdirən mərasimlər vasitəsilə ötürülür və bu rituallar təbiətin dövri dəyişmələri ilə sıx bağlıdır [4, s. 41]. Pyer Nora-nın yaddaş məkanları ("lieux de mémoire"). Bu yanaşma Novruz kontekstində çox güclü analitik çərçivə təqdim edir: Novruz mərasimləri və simvolları (tonqal, səməni, su, yumurta boyama) yalnız ritual deyil, həm də "yaddaş məkanları" kimi kollektiv kimliyi qoruyan simvolik strukturlardır. Nəzəriyyəsi isə vurğulayır ki, yaddaş məkanları, təbiət hadisələri də daxil olmaqla, sosial həyatın davamlılığını təmin edən yaddaş mexanizmləri kimi fəaliyyət göstərir [15, s. xvii].

Novruz mərasimlərində icra olunan rituallar - tonqal üzərindən atlanmaq, səməni cücərtmək, su ilə bağlı təmizlənmə ayinləri - yalnız simvolik məna daşımır, həm də təcəssüm etdirən (embodied) təcrübələr kimi sosial yaddaşın ötürülməsində mühüm rol oynayır. Bu rituallar hər il təbiətin dövri dəyişmələrinə uyğun olaraq təkrarlanır və Konnertonun vurğuladığı kimi, yaddaşın təcəssüm etdirən formaları vasitəsilə nəsildən-nəsilə ötürülür [4, s. 41]. Beləliklə, Novruz mərasimləri təbiətin dövri dəyişmələrinin kollektiv yaddaş və identiklik üzərindəki təsirini ən parlaq şəkildə nümayiş etdirən mədəni fenomen kimi çıxış edir. Novruzun ritualları Assmannın mədəni yaddaş konseptində təsvir olunan ritmik strukturların canlı təzahürü, Nora-nın "lieux de mémoire" anlayışında isə kollektiv identikliyin qorunmasına xidmət edən yaddaş məkanları kimi fəaliyyət göstərir.

Antropoloji tədqiqatlarda mövsümi mərasimlərin cəmiyyətlərin təbiətlə münasibətinin mədəni

ifadəsi olduğu qeyd olunur. Bu mərasimlər vasitəsilə insanlar təbiətin dövri dəyişikliklərini simvolik şəkildə qeyd edir və bu dəyişiklikləri sosial həyatın strukturuna daxil edirlər [6, s. 68-72]. Bu baxımdan Novruz mərasimləri təbiətin yenilənməsi ideyasının sosial və mədəni səviyyədə ifadəsi kimi çıxış edir.

Azərbaycan xalq ənənəsində yazın gəlişi xüsusilə çərşənbələr sistemi ilə ifadə olunur. Su, od, yel və torpaq çərşənbələri təbiətin əsas elementlərini simvolizə edir və bu elementlərin harmoniyası yeni həyat dövrünün başlanğıcını bildirir. Bu mərasimlər vasitəsilə təbiət dövrləri sosial və mədəni məna qazanır və kollektiv şəkildə qeyd olunur.

**Novruz mərasimlərində kosmoloji düşüncə və simvolik qatların təzahürü.** Novruz mərasimlərinin strukturunda qədim kosmoloji təsəvvürlərin izlərini müşahidə etmək mümkündür. Bu təsəvvürlər xüsusilə təbiət elementlərinə verilən simvolik məna və ritual praktikalar vasitəsilə ifadə olunur. Araşdırmalar göstərir ki, Novruzun bəzi mərasim elementləri qədim Zərdüştilik ənənələri ilə əlaqələndirilir [3, s. 120-124].

Zərdüştilik dünyagörüşündə od yalnız fiziki təmizlənmənin deyil, həm də mənəvi saflaşma və varlığın yenilənməsinin başlıca simvolu kimi qəbul olunurdu. Zərdüşt məbədlərində müqəddəs od daim yanar vəziyyətdə saxlanılır və onun sönməsinə yol verilməzdi. Bu davamlı alov kosmik nizamın və ilahi saflığın simvolu hesab olunur. Od, atəş, alov Günəşin təcəssümü kimi qəbul edilir və müqəddəs alov qarşısında ibadət etmək Günəşə və onun yaradıcı gücünə ehtiramın ifadəsi kimi şərh olunur.

Novruz mərasimlərində isə od fərqli ritual məna kəsb edir. Bayram kontekstində tonqallar əsasən çərşənbə mərasimlərində və Novruz günündə yandırılır və mərasim başa çatdıqdan sonra sönür. Tonqal üzərindən tullanmaq və od ətrafında keçirilən mərasim praktikaları simvolik olaraq köhnə ilin mənfi enerjisindən təmizlənmə və yeni həyat dövrünə keçidi ifadə edir. Beləliklə, Zərdüştilikdə daimi və müqəddəs olan alov Novruz ənənəsində dövri şəkildə yaranan və ritual olaraq icra edilən simvolik təmizlənmə elementi kimi çıxış edir.

Bununla belə, Novruz mərasimlərinin kosmoloji qatını yalnız dini mənşə ilə izah etmək mümkün deyil. Müasir tədqiqatlarda vurğulanır ki, Novruz yalnız dini ənənənin davamı kimi deyil, müxtəlif tarixi və mədəni qatların sintezi nəticəsində formalaşmış kompleks mərasimlər sistemi kimi qiymətləndirilməlidir [3, s. 120-124; 7, s. 67-70].

Beləliklə, Novruzun tarixi qatları təqvim sistemi, təbiət dövrləri və kosmoloji düşüncə elementlərinin qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Bu tarixi və mədəni qatlar bayramın ritual strukturunda və simvolik atributlarında öz əksini tapır. Növbəti bölmədə Novruz mərasimlərinin struktur modeli və onun əsas ritual elementləri daha ətraflı təhlil ediləcəkdir.

**Ritual və simvolika.** Novruz mərasimlərinin ən diqqətçəkən xüsusiyyətlərindən biri onların zəngin simvolik struktura malik olmasıdır. Bayramın əsas mərasim elementləri: tonqal, su, səməni və bayram süfrəsi, yalnız gündəlik həyatın maddi atributları deyil, həm də kollektiv yaddaşda xüsusi mənalar daşıyan simvolik elementlər kimi çıxış edir. Ritual nəzəriyyəsində qeyd olunur ki, mərasimlərdə istifadə olunan maddi obyektlər sosial və mədəni mənaların ifadə vasitəsinə çevrilərək kollektiv təcrübənin formalaşmasına xidmət edir [2, s. 109-115].

Bu baxımdan Novruz mərasimlərində istifadə olunan atributlar iki yerə ayrılır: bir tərəfdən onlar mərasimin maddi komponentlərini təşkil edir, digər tərəfdən isə kollektiv yaddaşın və mədəni identikliyin simvolik ifadəsi kimi çıxış edirlər. Ritual praktikalar vasitəsilə bu atributlar hər il yenidən mənalandırılır və kollektiv yaddaşın aktivləşdirilməsinə xidmət edir.

**Od və təmizlənmə simvolikası.** Novruz mərasimlərində tonqalın mərkəzi rol oynaması qədim

kosmoloji təsəvvürlərin və təbiət dövrləri ilə bağlı simvolik düşüncənin davamı kimi qiymətləndirilə bilər. Od burada yalnız fiziki element deyil, təmizlənmə, yenilənmə və yeni həyat dövrünə keçidi ifadə edən mühüm ritual simvol kimi çıxış edir.

Novruz mərasimlərinin ən geniş yayılmış elementlərindən biri tonqal mərasimidir. Bayram ərəfəsində tonqal qalamaq və onun üzərindən tullanmaq ənənəsi bir çox regionlarda Novruzun əsas ritual praktikalarından hesab olunur. Bu mərasim simvolik olaraq köhnə ilin çətinliklərini, xəstəliklərini və mənfi enerjisini od vasitəsilə aradan qaldırmaq ideyasını ifadə edir. Tonqal üzərindən tullanmaq isə mənəvi saflaşma və yenilənmə aktı kimi şərh olunur; insan bu hərəkət vasitəsilə keçmiş ilin mənfi yükündən azad olaraq yeni həyat mərhələsinə qədəm qoyduğunu simvolik şəkildə ifadə edir.

Əsas fərq ondan ibarətdir ki, Zərdüştlükdə od müqəddəs hesab olunurdu və ona toxunmaq qadağan idi; hətta atəşpərəstlər odun müqəddəsliyinə nəfəs alarkən zərər verməmək üçün üzlərini paydana ilə örtərək ibadət edirdilər. Halbuki Novruz ənənəsində insanlar tonqal üzərindən atlanaraq odun gücünü simvolik saflaşma, yenilənmə və yeni enerji qazanmaq vasitəsi kimi qəbul edirlər.

Tonqal mərasimi eyni zamanda kollektiv iştirakın və sosial birlik hissinin formalaşmasına xidmət edən mühüm ritual praktikadır. İnsanların tonqal ətrafında toplaşması və kollektiv şəkildə mərasim hərəkətlərində iştirak etməsi ortaq emosional təcrübə yaradır, icma daxilində həmrəyliyi gücləndirir və kollektiv identikliyin möhkəmlənməsinə töhfə verir.

Bu baxımdan tonqal mərasimi Novruz bayramının ritual strukturunda həm kosmoloji simvolika, həm də sosial-mədəni funksiyaları birləşdirən əsas elementlərdən biri kimi çıxış edir.

**Su və yenilənmə ideyası.** Su Novruz mərasimlərinin mühüm simvolik elementlərindən biridir. Xalq ənənəsində su həyat mənbəyi, təmizlənmə və yenilənmənin rəmzi kimi qəbul olunur. Novruz ərəfəsində su ilə bağlı müxtəlif mərasim praktikaları: axar su üzərindən keçmək, suyun üzərində niyyət tutmaq və ya səhər tezdən bulaqdan su gətirmək, evə su çiləmək bu simvolikanın mədəni ifadəsi kimi çıxış edir və təbiətin yenilənməsi ideyasını gündəlik ritual davranışa çevirir.

Antropoloji tədqiqatlarda su elementinin bir çox mədəniyyətlərdə həyatın başlanğıcı və kosmik yenilənmə ideyası ilə əlaqələndirildiyi qeyd olunur [6, s. 188-194]. Bu baxımdan Novruz mərasimlərində su ilə bağlı praktikalar yalnız təbiətin yenilənməsini deyil, həm də insanın sosial və mənəvi yenilənməsini simvolik şəkildə ifadə edir. Beləliklə, su Novruz mərasimlərinin ritual strukturunda həm kosmoloji düşüncənin, həm də kollektiv yaddaşın simvolik daşıyıcısı kimi çıxış edir.

Səməni həyatın yenilənməsi və kollektiv yaddaşın kosmoloji simvolu

Novruzun ən parlaq simvollarından biri səmənidir. Bayram süfrəsinin mərkəzi elementi hesab olunur və təbiətin oyanışını, məhsuldarlığı və həyatın davamlılığını simvolizə edir. Onun yetişdirilməsi yazın başlanğıcında torpağın yenidən canlanmasını və yeni həyat dövrünün başlanmasını simvolik şəkildə göstərir.

Kulturoloji antropologiya tədqiqatları göstərir ki, bitkilərin cücərmə prosesi bir çox mədəniyyətlərdə həyatın yenilənməsi ideyasının ən güclü simvolu kimi qəbul edilir [6, s. 67-69]. Bu baxımdan səməni yalnız dekorativ element deyil, həm də təbiətin dövri yenilənməsini, kosmik ritmlərin sosial həyatla vəhdətini ifadə edən simvolik atribut kimi çıxış edir.

Assmannın yaddaş nəzəriyyəsinə əsasən, səməni hər il təkrar olunan cücərmə prosesi vasitəsilə mədəni yaddaşın simvolik daşıyıcısı kimi çıxış edir. Bioloji fakt olan cücərmə sosial yaddaşla birləşərək kollektiv kimliyin möhkəmlənməsinə xidmət edir. Konnertonun “ritual yaddaş”

konsepsiyası isə göstərir ki, səməni yetişdirmə praktikası sadəcə bioloji proses deyil, həm də icmanın özünü yenidən təsdiqlədiyi ritual icra formasıdır.

Beləliklə, səməni Novruz kontekstində həm kosmoloji, həm də sosial səviyyədə yaddaş məkanı funksiyasını yerinə yetirir. O, təbiətin dövri yenilənməsini kollektiv yaddaşla birləşdirərək icmanın kimliyini möhkəmləndirən və zamanın axışını ritmik şəkildə təkrar edən mədəni simvola çevrilir.

**Bayram süfrəsi və kollektiv paylaşım.** Novruz süfrəsi bayramın sosial və mədəni aspektlərini əks etdirən mühüm ritual elementlərdən biridir. Süfrədə yerləşdirilən müxtəlif qidalar və simvolik atributlar - səməni, şirniyyatlar, boyanmış yumurtalar və digər bayram yeməkləri, yalnız kulinariya ənənəsi deyil, həm də kollektiv paylaşım və sosial birlik ideyasının ifadəsidir.

Sosioloji tədqiqatlarda qeyd olunur ki, kollektiv yemək və süfrə ənənələri cəmiyyət daxilində sosial münasibətlərin möhkəmlənməsinə və kollektiv identikliyin formalaşmasına xidmət edir [5, s. 224-226]. Novruz süfrəsi də bu baxımdan yalnız qida təqdimatı deyil, ailə və icma daxilində sosial münasibətlərin yenilənməsini təmin edən ritual məkan kimi çıxış edir.Eyni zamanda bayram süfrəsi kollektiv yaddaşın gündəlik həyat praktikaları vasitəsilə yaşadıldığı simvolik sosial məkan funksiyasını da yerinə yetirir.

**Maddi atributlar və qeyri-maddi məna.** Novruz mərasimlərində istifadə olunan bütün bu atributlar – tonqal, su, səməni və bayram süfrəsi – ilk baxışda maddi elementlər kimi görünür. Lakin onların əsas əhəmiyyəti daşıdıqları simvolik məna və kollektiv yaddaşın formalaşmasında oynadıqları rolda ifadə olunur.

Mədəni irs tədqiqatlarında qeyd olunur ki, qeyri-maddi mədəni irs yalnız ideyalar və ənənələrdən ibarət deyil; o, həm də müəyyən maddi atributlar və ritual praktikalar vasitəsilə ifadə olunur [17, s. 44-47; 9, s. 14-18]. Bu baxımdan Novruz mərasimlərinin maddi atributları kollektiv yaddaşın və mədəni identikliyin simvolik daşıyıcıları kimi çıxış edir.

Beləliklə, Novruz mərasimlərinin simvolik strukturu maddi və qeyri-maddi elementlərin qarşılıqlı əlaqəsi üzərində qurulmuşdur. Ritual praktikalar vasitəsilə bu elementlər hər il yenidən mənalandırılır və kollektiv yaddaşın aktivləşdirilməsinə xidmət edir. Məhz bu xüsusiyyət Novruzu yalnız folklor hadisəsi deyil, həm də mədəni yaddaşın qorunması və ötürülməsi mexanizmi kimi qiymətləndirməyə imkan verir.

Bu baxımdan Novruz mərasimlərində istifadə olunan maddi atributlar zamanla kollektiv yaddaş və ritual davamlılıq vasitəsilə mədəni irs statusu qazanan simvolik elementlərə çevrilir və beləliklə "ənənədən irsə" transformasiya prosesinin mühüm nümunəsini təşkil edir.

**Kollektiv yaddaş və nəsillərarası ötürülmə.** Kollektiv yaddaş anlayışı cəmiyyətlərin keçmiş təcrübələri necə xatırladıqlarını və bu xatirələrin sosial mühitdə necə qorunduğunu izah edən mühüm nəzəri çərçivələrdən biridir. Moris Halbvaks kollektiv yaddaşın fərdi xatirələrin sadəcə toplusu olmadığını, əksinə sosial mühitdə formalaşan və kollektiv strukturlar vasitəsilə qorunan yaddaş sistemi olduğunu göstərmişdir [8, s. 38-52]. Onun fikrincə, fərdi xatirələr ailə, icma və digər sosial qruplar daxilində paylaşılaraq kollektiv yaddaşa çevrilir.

Bu baxımdan mərasim və ritual praktikalar kollektiv yaddaşın qorunmasında mühüm rol oynayır. Ritual hərəkətlər və təkrarlanan mərasimlər vasitəsilə cəmiyyət öz keçmişini xatırlayır və onu sosial təcrübənin ayrılmaz hissəsinə çevirir. Yan Assmann mədəni yaddaş konsepsiyasında qeyd edir ki, kollektiv xatirələr yalnız mətnlər və yazılı mənbələr vasitəsilə deyil, həm də ritual praktikalar və simvolik fəaliyyətlər vasitəsilə nəsillərarası şəkildə ötürülür [1, s. 36-47].

Bu nəzəri yanaşmalar Novruz mərasimlərinin sosial funksiyasını anlamaq üçün mühüm metodoloji

çərçivə təqdim edir. Novruz mərasimləri hər il təkrarlanan ritual praktikalar vasitəsilə kollektiv yaddaşı aktivləşdirir və cəmiyyət üzvlərinin ortaq keçmişə aid mənəvi bağlarını möhkəmləndirir. Bayram mərasimləri zamanı ailə üzvləri və icma üzvləri birlikdə iştirak edir, müəyyən ritual hərəkətləri təkrarlayır və bu proses kollektiv xatirələrin yenidən yaşanmasına imkan yaradır.

**Ailə və icma yaddaş mühiti kimi.** Kollektiv yaddaşın qorunması və ötürülməsi prosesində ailə və icma mühüm rol oynayır. Sosial yaddaş tədqiqatlarında qeyd olunur ki, ailə gündəlik həyatın ən mühüm yaddaş mühitlərindən biridir və burada paylaşılan xatirələr nəsillər arasında ötürülərək kollektiv identikliyin formalaşmasına təsir göstərir [8, s. 52-60].

Novruz mərasimləri də əsasən ailə və icma mühitində yaşadılan ritual praktikalar vasitəsilə qorunur. Bayram süfrəsinin hazırlanması, səməni yetişdirilməsi, tonqal mərasimləri və digər ritual elementlər ailə üzvlərinin birgə iştirak etdiyi sosial fəaliyyətlərdir. Bu fəaliyyətlər zamanı ailənin yaşlı üzvləri öz xatirələrini və təcrübələrini gənc nəsillərlə bölüşür və beləliklə kollektiv yaddaşın nəsillərarası ötürülməsi baş verir.

İcma səviyyəsində keçirilən mərasimlər də bu prosesdə mühüm rol oynayır. Məhəllə və ya kənd mühitində keçirilən tonqal mərasimləri və bayram görüşləri insanların kollektiv şəkildə iştirak etdiyi sosial hadisələrdir. Bu mərasimlər vasitəsilə fərdi xatirələr sosial məna qazanır və kollektiv yaddaşın bir hissəsinə çevrilir.

**Narrativlər və yaddaşın ötürülməsi.** Kollektiv yaddaşın formalaşmasında narrativlərin xüsusi rolu vardır. İnsanlar keçmiş hadisələri və təcrübələri hekayələr və xatirələr vasitəsilə paylaşaraq kollektiv yaddaşın formalaşmasına töhfə verirlər. Mədəni yaddaş tədqiqatlarında qeyd olunur ki, narrativlər kollektiv kimliyin və tarixi təcrübənin nəsillərarası ötürülməsində mühüm rol oynayır [1, s. 37-41].

Novruz mərasimləri zamanı ailə və icma daxilində danışılan xatirələr və hekayələr bu prosesin mühüm hissəsini təşkil edir. Bayram hazırlıqları, süfrə ətrafında keçirilən görüşlər və kollektiv mərasimlər insanların öz keçmişlərini xatırlaması və bu xatirələri yeni nəsillərlə paylaşması üçün sosial mühit yaradır.

Bu baxımdan Novruz mərasimləri yalnız ritual praktikalar deyil, həm də kollektiv yaddaşın narrativ formada yaşadıldığı sosial məkan kimi çıxış edir. Bayram mərasimləri zamanı paylaşılmış xatirələr və hekayələr kollektiv identikliyin formalaşmasına və sosial davamlılığın qorunmasına xidmət edir.

**Ritual vasitəsilə yaddaşın qorunması.** Ritual praktikalar kollektiv yaddaşın qorunmasında mühüm mexanizm kimi çıxış edir. Təkrarlanan ritual hərəkətlər və mərasim strukturları vasitəsilə cəmiyyət öz keçmiş təcrübələrini simvolik şəkildə yenidən yaşayır və onları gələcək nəsillərə ötürür. Bu baxımdan ritual yalnız ənənənin təkrarı deyil, həm də yaddaşın sosial şəkildə yenidən qurulması prosesidir.

Novruz mərasimləri bu prosesin parlaq nümunəsidir. Bayramın hər il eyni ritual struktura uyğun qeyd olunması kollektiv yaddaşın davamlılığını təmin edir. Tonqal, səməni, bayram süfrəsi və digər mərasim elementləri yalnız simvolik atributlar deyil, həm də kollektiv yaddaşın maddi daşıyıcıları kimi çıxış edir.

Beləliklə, Novruz mərasimləri kollektiv yaddaşın qorunması və nəsillərarası ötürülməsi üçün mühüm sosial və mədəni mexanizm kimi qiymətləndirilə bilər. Ritual praktikalar vasitəsilə cəmiyyət öz keçmişini xatırlayır, kollektiv identikliyini möhkəmləndirir və mədəni davamlılığını təmin edir.

Sovet dövrü: qadağa və transformasiya. Novruz mərasimlərinin tarixi inkişafı müxtəlif siyasi və

ideoloji kontekstlərin təsiri altında dəyişmişdir. Bu transformasiyalar xüsusilə XX əsrdə, Sovet hakimiyyəti dövründə daha aydın şəkildə müşahidə olunur. Sovet ideologiyası dini və ənənəvi mərasimləri "köhnə" və "geridə qalmış" sosial praktikalar kimi qiymətləndirir və bu səbəbdən bir çox ənənəvi bayramların ictimai şəkildə qeyd olunmasını məhdudlaşdırmağa çalışırdı [11, s. 101-105].

Novruz bayramı da bu ideoloji siyasətin təsirinə məruz qalmışdır. XX əsrin ilk onilliklərində Sovet hakimiyyəti Novruzu dini və "feodal" ənənənin qalığı kimi təqdim etmiş və onun rəsmi səviyyədə qeyd olunmasını uzun müddət məhdudlaşdırmışdır. Bu siyasətin məqsədi yeni sovet sosialist mədəniyyətinin formalaşdırılması və ənənəvi mərasimlərin sosial həyatdakı rolunun zəiflədilməsi idi [16, s. 212-214].

**Rəsmi diskurs və ideoloji yanaşma.** Sovet dövründə dövlət ideologiyası ənənəvi mərasimləri modernləşmə və sekulyarlaşma siyasətinin qarşısında duran maneə kimi təqdim edirdi. Bu kontekstdə Novruz bayramı rəsmi ideoloji diskursda əsasən folklor elementi kimi təqdim olunur və onun sosial və mədəni funksiyası nəzərə alınmırdı. Bəzi dövrlərdə isə bayram ümumiyyətlə ictimai məkandan kənarlaşdırılırdı.

Sovet mədəni siyasətinin əsas məqsədlərindən biri yeni sovet xalqı üçün kollektiv identiklik formalaşdırmaq idi və bu səbəbdən ənənəvi mərasimlərə qarşı ehtiyatlı münasibət göstərilirdi. Bununla belə, bir çox hallarda bu mərasimlər rəsmi səviyyədə məhdudlaşdırılsa və ya qadağan edilsə də, onların tamamilə aradan qaldırılması mümkün olmamışdır.

**Məişət yaddaşı və "ev içində" yaşadılan Novruz.** Rəsmi məhdudiyyətlərə baxmayaraq, Novruz mərasimləri cəmiyyətin gündəlik həyatında yaşamağa davam etmişdir. Bayramın rəsmi şəkildə qeyd olunması məhdudlaşdırıldığı dövrlərdə belə, ailə və icma mühitində Novruz ənənələri qorunmuş və nəsildən-nəslə ötürülmüşdür.

Mədəni yaddaş tədqiqatlarında qeyd olunur ki, siyasi rejimlərin ideoloji nəzarəti altında olan cəmiyyətlərdə bir çox mədəni praktikalar rəsmi məkanlardan məişət mühitinə keçərək yaşamağa davam edir [1, s. 45-47]. Bu proses nəticəsində kollektiv yaddaş ailə və icma daxilində qorunur və qeyri-rəsmi sosial mühitdə nəsillərarası şəkildə ötürülür.

Novruz mərasimlərinin Sovet dövründə yaşadılması da bu fenomenin nümunələrindən biridir. Bayram ictimai meydanlarda və kollektiv mərasimlər şəklində deyil, daha çox ailə mühitində və gündəlik məişət praktikaları daxilində qeyd olunurdu. Evlərdə bayram süfrəsi hazırlanır, buğda qovrulur (qovurğa), səməni yetişdirilir və müxtəlif mərasim elementləri ailə daxilində yaşadılırdı. Xüsusilə Novruz süfrəsinin ənənəvi şirniyyatları - qoğal, şəkərbura, paxlava, fətir, şirin kətə hazırlanır, qoz, fındıq, pestə və badam ləpələri süfrənin ayrılmaz hissəsinə çevrilirdi. Bu hazırlıq prosesi çox vaxt ailə üzvlərinin və bəzən də məhəllə sakinlərinin birgə iştirakı ilə həyata keçirilirdi. Mərasimlər isə əksər hallarda açıq ictimai formada deyil, daha çox ailə daxilində və yaxın sosial mühitdə keçirilirdi.

Bu baxımdan Novruzun sovet dövründə yaşadılması kollektiv yaddaşın sosial gücünü nümayiş etdirən mühüm nümunə hesab edilə bilər. Rəsmi ideoloji məhdudiyyətlərə baxmayaraq, bayramın əsas ritual elementləri ailə və icma mühitində qorunmuş və beləliklə mədəni davamlılıq təmin edilmişdir.

**Transformasiya və yenidən legitimləşmə.** 1980-ci illərin sonlarında Sovet İttifaqında baş verən siyasi və sosial dəyişikliklər nəticəsində Novruz mərasimləri yenidən ictimai məkanda qeyd olunmağa başlamışdır. Bu dövrdə milli mədəniyyətə və ənənələrə marağın artması Novruz bayramının sosial və mədəni statusunun bərpasına gətirib çıxarmışdır.

Müstəqillik dövründə Novruz Azərbaycan cəmiyyətində milli mədəniyyətin və tarixi ənənələrin mühüm simvollarından biri kimi yenidən legitimləşdirilmişdir. Bu proses göstərir ki, uzun müddət

rəsmi ideoloji təzyiqlərə baxmayaraq, Novruz mərasimləri kollektiv yaddaşın gücü sayəsində sosial həyatın mühüm elementi kimi qorunub saxlanılmışdır.

Beləliklə, Sovet dövrü Novruz mərasimlərinin tarixi inkişafında mühüm transformasiya mərhələsi kimi qiymətləndirilə bilər. Rəsmi ideoloji diskurs bayramın ictimai şəkildə qeyd olunmasını məhdudlaşdırsa da, Novruz mərasimləri ailə və icma mühitində yaşadılmağa davam etmiş və bu proses kollektiv yaddaşın və mədəni davamlılığın gücünü nümayiş etdirmişdir.

**Məcburi köçkünlük və məkan itkisi kontekstində Novruz.** Qarabağ münaqişəsi nəticəsində yaranmış kütləvi məcburi köçkünlük Azərbaycan cəmiyyətinin sosial və mədəni həyatında dərin izlər buraxmışdır. Minlərlə ailə doğma yaşayış məkanlarını tərk etmək məcburiyyətində qalmış, bu proses yalnız fiziki məkan itkisi deyil, həm də sosial və mədəni mühitin parçalanması ilə nəticələnmişdir. Bu kontekstdə mədəni mərasimlərin və kollektiv ritual praktikaların qorunması məcburi köçkün icmaları üçün kollektiv yaddaşın və sosial identikliyin davamlılığını təmin edən mühüm mexanizmlərdən birinə çevrilmişdir.

Məcburi köçkünlük və məkan itkisi şəraitində kollektiv yaddaşın qorunması məsələsi yaddaş tədqiqatları sahəsində geniş şəkildə araşdırılmışdır. Araşdırmalar göstərir ki, məkan itkisi yaşayan icmalar üçün ritual və mərasimlər kollektiv identikliyin qorunmasında və keçmişlə əlaqənin saxlanmasında mühüm rol oynayır [8, s. 130-135; 1, s. 45-49]. Bu baxımdan Novruz mərasimləri Qarabağdan məcburi köçkün və Qərbi Azərbaycandan qaçqın düşmüş icmalar üçün yalnız mövsümi bayram deyil, həm də kollektiv yaddaşın yaşadılması və itirilmiş məkanın simvolik şəkildə xatırlanması vasitəsinə çevrilmişdir.

**Şuşa nümunəsi və məkan yaddaşı.** Şuşa şəhəri Qarabağın mədəni və tarixi mərkəzlərindən biri kimi Azərbaycan kollektiv yaddaşında xüsusi yer tutur. Qarabağ münaqişəsi nəticəsində Şuşa və ətraf kəndlərin işğalı, əhalinin məcburi köçkün vəziyyətinə düşməsi bu məkanla bağlı xatirələrin və mədəni ənənələrin yeni sosial mühitdə yaşadılması məsələsini daha da aktuallaşdırmışdır.

Şuşadan rayonundan məcburi köçkün düşmüş insanların xatirələri göstərir ki, Novruz mərasimləri doğma məkan itirildikdən sonra belə kollektiv identikliyin qorunmasında mühüm rol oynamağa davam etmişdir. Bayramın qeyd olunması yalnız mövsümi mərasim kimi deyil, həm də itirilmiş məkanla bağlı xatirələrin və kollektiv kimliyin yaşadılması vasitəsi kimi qəbul edilir. Bu kontekstdə Novruz mərasimləri məkan yaddaşının simvolik ifadə formalarından biri kimi çıxış edir. Bayram mərasimləri zamanı doğma şəhər və kəndlə bağlı xatirələr, ailə hekayələri və keçmiş mərasim təcrübələri yenidən xatırlanır və bu xatirələr nəsildən-nəslə ötürülür.

**Sahə materialları və narrativlər.** Bu məqalədə təqdim olunan materialın bir hissəsi müəllifin uzunmüddətli sahə tədqiqatları və şifahi tarix müsahibələrinə əsaslanır. Məcburi köçkün icmalarla aparılmış müsahibələr göstərir ki, Novruz mərasimləri yeni yaşayış məkanlarında belə qorunmağa davam etmiş və kollektiv yaddaşın mühüm elementi kimi yaşadılmışdır. Bir çox müsahibələrdə məcburi köçkünlər Novruzun onların həyatında xüsusi emosional və simvolik əhəmiyyət daşıdığını qeyd edirlər. Bayramın qeyd olunması yalnız ənənənin davamı deyil, həm də doğma məkanla bağlı xatirələrin və kollektiv identikliyin qorunması vasitəsi kimi qəbul edilir.

Narrativlər göstərir ki, məcburi köçkün icmalar üçün Novruz mərasimləri sosial və emosional baxımdan mühüm məna daşıyır. Bayram mərasimləri zamanı ailələr və icmalar bir araya gələrək kollektiv xatirələri paylaşır və beləliklə keçmişlə əlaqəni qoruyurlar.

“Öz doğma məkanı yoxdur, amma mərasim var”

Məcburi köçkünlük şəraitində insanlar doğma məkanlarını itirsələr də, Novruz kimi mərasimlər vasitəsilə həmin məkanla bağlı xatirələri və mədəni ənənələri yeni sosial mühitdə yaşadırlar. Bu,

Assmannın nəzəriyyəsində mədəni yaddaşın mobil xarakteri ilə izah olunur: məkan dəyişsə də, ritualın təkrarı kollektiv kimliyi qoruyur. Konnertonun "ritual yaddaş" konsepsiyası isə göstərir ki, mərasimlər sadəcə bayram aktı deyil, həm də icmanın özünü yenidən təsdiqlədiyi sosial yaddaş praktikasıdır.

Beləliklə, doğma məkanın itirilməsi mədəni yaddaşın silinməsi demək deyil. Əksinə, mərasimlərin yeni mühitdə yaşadılması yaddaşın transformasiyasını və davamlılığını təmin edir. Bu, Novruzu məkanla bağlı xatirələrin daşıyıcısı və kollektiv kimliyin qoruyucusu kimi təqdim edir. Məcburi köçkün icmaların təcrübəsi göstərir ki, məkan itkisi mədəni mərasimlərin tamamilə yox olması ilə nəticələnmir. Əksinə, bir çox hallarda ritual praktikalar yeni sosial mühitdə yenidən qurulur və kollektiv yaddaşın qorunması üçün mühüm vasitəyə çevrilir.

Bu fenomeni "öz doğma yeri yoxdur, amma mərasim var" prinsipi ilə izah etmək mümkündür. Yəni fiziki məkan itirilsə belə, mədəni ritual praktikalar kollektiv yaddaş vasitəsilə yaşamağa davam edir. Novruz mərasimləri məhz bu prosesin parlaq nümunəsidir. Məcburi köçkün icmalar yeni yaşayış məkanlarında - şəhər mühitində, köçkün qəsəbələrində və hətta müvəqqəti yaşayış yerlərində belə bayram mərasimlərini davam etdirərək öz mədəni identikliklərini qorumağa çalışmışlar.

Bu baxımdan Novruz mərasimləri məcburi köçkünlük şəraitində kollektiv yaddaşın qorunması və mədəni davamlılığın təmin edilməsi üçün mühüm sosial və mədəni mexanizm kimi çıxış edir. Ritual praktikalar vasitəsilə itirilmiş məkanın xatirəsi kollektiv yaddaşda yaşamağa davam edir və bu yaddaş yeni nəsillərə ötürülür.

Beləliklə, Qarabağ münaqişəsi nəticəsində məcburi köçkün düşmüş icmaların təcrübəsi göstərir ki, Novruz mərasimləri yalnız mövsümi bayram deyil, həm də məkan itkisi şəraitində kollektiv yaddaşın və sosial identikliyin qorunmasına xidmət edən mühüm mədəni institutdur.

**Müasir dövrdə Novruz: identiklik, mədəni diplomatiya və irs siyasəti.** Müasir dövrdə Novruz bayramı yalnız mövsümi mərasim və ya ənənəvi mədəni praktika kimi deyil, həm də kollektiv identikliyin ifadə olunduğu mühüm sosial və mədəni fenomen kimi çıxış edir. Qloballaşma və mədəni transformasiya prosesləri şəraitində ənənəvi mərasimlər cəmiyyətlərin öz tarixi və mədəni kimliyini qorumaq üçün istifadə etdiyi mühüm simvolik resurslara çevrilir. Bu baxımdan Novruz bayramı Azərbaycan və ümumilikdə türk dünyasında kollektiv identikliyin və mədəni davamlılığın mühüm elementlərindən biri hesab olunur. Eyni zamanda Novruz Qafqaz, Mərkəzi Asiya, Yaxın və Orta Şərq regionlarında yaşayan müxtəlif xalqlar tərəfindən qeyd olunan və geniş mədəni arealı əhatə edən transmilli mərasim ənənəsi kimi çıxış edir.

Mədəniyyət tədqiqatlarında qeyd olunur ki, kollektiv mərasimlər yalnız keçmişin xatırlanması funksiyasını daşımır, eyni zamanda müasir sosial identikliklərin formalaşmasında da mühüm rol oynayır [17, s. 44-47]. Novruz bayramı da bu baxımdan tarixi ənənənin davamı olmaqla yanaşı, müasir dövrdə milli və mədəni identikliyin ifadə formalarından biri kimi çıxış edir.

Novruz və mədəni diplomatiya

Son onilliklərdə Novruz bayramı beynəlxalq mədəni münasibətlər və mədəni diplomatiya kontekstində də xüsusi əhəmiyyət qazanmışdır. Bayramın müxtəlif ölkələrdə yaşayan xalqlar tərəfindən qeyd olunması onu regional və transmillət mədəni fenomen kimi xarakterizə etməyə imkan verir.

2009-cu ildə Novruzun YUNESKO tərəfindən Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Siyahısına daxil edilməsi bu mərasimin beynəlxalq səviyyədə tanınmasına və elmi marağın artmasına səbəb olmuşdur [20]. Bu qərar Novruzu yalnız regional ənənə kimi deyil, müxtəlif xalqlar və mədəniyyətlər arasında paylaşılmış mədəni irs nümunəsi kimi təqdim edir.

Mədəni diplomatiya baxımından Novruz müxtəlif ölkələr arasında mədəni əlaqələrin gücləndirilməsi üçün mühüm platformaya çevrilmişdir. Bayramın beynəlxalq səviyyədə qeyd olunması müxtəlif mədəniyyətlər arasında dialoq və əməkdaşlıq imkanları yaradır və beləliklə mədəni müxtəlifliyin qorunmasına töhfə verir.

Novruzun YUNESKO siyahısına daxil edilməsi qeyri-maddi mədəni irs anlayışının müasir mədəni siyasətdə artan rolunu da əks etdirir. Mədəni irs tədqiqatlarında qeyd olunur ki, qeyri-maddi mədəni irs yalnız keçmişdən miras qalan ənənələr deyil, həm də müasir cəmiyyətlər tərəfindən yenidən mənalandırılan və sosial həyatın bir hissəsinə çevrilən dinamik mədəni prosesdir [9, s. 14-18].

Bu baxımdan Novruz mərasimləri yalnız folklor və etnoqrafiya çərçivəsində deyil, həm də mədəni irs siyasətinin və mədəni idarəetmənin mühüm elementlərindən biri kimi qiymətləndirilir. Dövlət və beynəlxalq təşkilatlar tərəfindən Novruzun qorunması və təşviqi mədəni irsin qorunması siyasətinin mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Eyni zamanda Novruzun müasir dövrdə qeyd olunması bu mərasimin dəyişən sosial və mədəni kontekstlərə uyğunlaşmaq qabiliyyətini də göstərir. Bayramın müasir şəhər mühitində, diaspor icmalarında və müxtəlif beynəlxalq platformalarda qeyd olunması onun dinamik və adaptiv mədəni fenomen olduğunu göstərir.

Beləliklə, müasir dövrdə Novruz bayramı yalnız ənənəvi mərasim kimi deyil, həm də kollektiv identikliyin formalaşması, mədəni diplomatiyanın inkişafı və qeyri-maddi mədəni irs siyasətinin həyata keçirilməsi baxımından mühüm sosial və mədəni institut kimi çıxış edir.

**Metodoloji nəticə: Novruzun tarixi mənbə kimi oxunması.** Novruz mərasimlərinin təhlili göstərir ki, bu bayram yalnız folklor və etnoqrafiya çərçivəsində öyrənilən mədəni praktika deyil, həm də sosial və tarixi proseslərin öyrənilməsi üçün mühüm analitik mənbə kimi çıxış edə bilər. Ritual və mərasimlər cəmiyyətlərin kollektiv yaddaşını, sosial münasibətlərini və mədəni identikliyini əks etdirən simvolik fəaliyyət formalarıdır. Bu baxımdan ritual praktikaların təhlili tarixi mənbəşünaslıq üçün yeni metodoloji imkanlar açır.

Tarixşünaslıqda uzun müddət əsas diqqət yazılı sənədlərə və arxiv materiallarına yönəldilmişdir. Lakin müasir humanitar elmlərdə sosial və mədəni tarix tədqiqatları göstərir ki, kollektiv yaddaş və ritual praktikalar da cəmiyyətlərin keçmiş təcrübələrini əks etdirən mühüm mənbələrdir. Ritual və mərasimlər vasitəsilə cəmiyyətlər öz keçmişlərini simvolik şəkildə yenidən qurur və kollektiv təcrübələrini nəsildən-nəslə ötürürlər [1, s. 36-47].

Bu baxımdan Novruz mərasimlərinin strukturu və simvolik elementləri müəyyən tarixi və mədəni qatların izlərini daşıyan sosial fenomen kimi təhlil edilə bilər. Bayramın ritual elementləri – çərşənbələr sistemi, tonqal mərasimləri, səməni və bayram süfrəsi – yalnız mədəni atributlar deyil, həm də kollektiv yaddaşın simvolik daşıyıcılarıdır. Bu elementlər vasitəsilə cəmiyyətlər öz tarixlərini və mədəni təcrübələrini simvolik şəkildə ifadə edirlər.

Ritual praktikaların mənbəşünaslıq potensialı xüsusilə kollektiv yaddaş və mədəni irs tədqiqatlarında daha aydın görünür. Mədəni yaddaş nəzəriyyəsində qeyd olunur ki, kollektiv xatirələr yalnız yazılı mənbələrdə deyil, həm də ritual praktikalar və simvolik fəaliyyətlər vasitəsilə qorunur və ötürülür [8, s. 38-52; 1, s. 45-49]. Bu baxımdan ritual mərasimlər tarixi yaddaşın sosial səviyyədə qorunduğu və yenidən istehsal olunduğu mühüm mədəni mexanizmlərdir.

Novruz mərasimlərinin təhlili göstərir ki, ritual strukturlar yalnız keçmişin xatirəsi deyil, həm də sosial dəyişikliklərin və tarixi transformasiyaların izlərini daşıyan mədəni sistemdir. Məsələn, Sovet dövründə Novruzun rəsmi şəkildə məhdudlaşdırılması və onun ailə mühitində yaşadılması kollektiv yaddaşın siyasi və ideoloji təzyiqlər şəraitində necə qorunduğunu göstərir. Eyni zamanda Qarabağ

münaqişəsi nəticəsində məcburi köçkün icmaların Novruz mərasimlərini yeni yaşayış məkanlarında davam etdirməsi ritualın kollektiv identikliyin qorunmasında oynadığı rolu aydın şəkildə nümayiş etdirir.

Bu baxımdan Novruz mərasimləri yalnız folklor ənənəsi deyil, həm də sosial tarix və kollektiv yaddaşın öyrənilməsi üçün mühüm analitik mənbə kimi qiymətləndirilə bilər. Ritual praktikaların təhlili cəmiyyətlərin mədəni təcrübələrini və sosial transformasiyalarını anlamağa imkan verir və beləliklə tarixi tədqiqatların metodoloji imkanlarını genişləndirir.

Beləliklə, Novruz mərasimlərinin kollektiv yaddaş və mədəni irs kontekstində təhlili göstərir ki, ritual sistemləri tarixi mənbə kimi oxuna bilən mühüm sosial fenomenlərdir. Bu yanaşma mədəni mərasimlərin yalnız etnoqrafik obyekt kimi deyil, həm də tarixşünaslıq və mənbəşünaslıq üçün analitik potensiala malik sosial mənbələr kimi öyrənilməsinin vacibliyini göstərir.

**Nəticə.** Bu tədqiqat Novruz mərasimlərinin yalnız mövsümi bayram və folklor hadisəsi kimi deyil, kollektiv yaddaşın formalaşması və sosial identikliyin qorunması prosesində mühüm rol oynayan kompleks ritual sistemi kimi təhlil edilməsinin vacibliyini göstərir. Məqalədə təqdim olunan nəzəri və empirik materiallar göstərir ki, Novruz mərasimləri cəmiyyətin sosial həyatında kollektiv yaddaşın aktivləşdirilməsi və nəsillərarası mədəni ötürülmənin təmin edilməsi baxımından mühüm sosial mexanizm kimi çıxış edir.

Tədqiqat nəticələri göstərir ki, Novruz mərasimlərinin strukturu müxtəlif tarixi və mədəni qatların qarşılıqlı təsiri nəticəsində formalaşmışdır. Bayramın təqvim və təbiət dövrləri ilə bağlı kökləri, kosmoloji təsəvvürlərlə əlaqəli simvolik elementləri və kollektiv ritual praktikaları bu mərasimin uzunmüddətli mədəni davamlılığını təmin edən əsas amillərdəndir. Tonqal, su, səməni və bayram süfrəsi kimi maddi atributlar yalnız mərasimin görünən elementləri deyil, həm də kollektiv yaddaşın simvolik daşıyıcıları kimi çıxış edir.

Məqalədə göstərildiyi kimi, Novruz mərasimləri müxtəlif tarixi dövrlərdə baş verən sosial və siyasi transformasiyalara baxmayaraq cəmiyyətin mədəni həyatında öz mövqeyini qoruyub saxlamışdır. Xüsusilə Sovet dövründə rəsmi ideoloji məhdudiyyətlərə baxmayaraq Novruz mərasimlərinin ailə və icma mühitində yaşadılması kollektiv yaddaşın və mədəni davamlılığın gücünü nümayiş etdirir.

Qarabağ münaqişəsi nəticəsində yaranmış məcburi köçkünlük şəraiti Novruz mərasimlərinin sosial və mədəni əhəmiyyətini daha da artırmışdır. Şuşa və Qarabağdan məcburi köçkün düşmüş icmaların təcrübəsi göstərir ki, məkan itkisi şəraitində belə ritual praktikalar kollektiv identikliyin qorunmasında mühüm rol oynamağa davam edir. Novruz mərasimlərinin yeni yaşayış məkanlarında yaşadılması kollektiv yaddaşın və mədəni davamlılığın sosial mexanizmlərini aydın şəkildə nümayiş etdirir.

Bu tədqiqat həmçinin göstərir ki, Novruz mərasimlərinin öyrənilməsi tarixşünaslıq və mənbəşünaslıq üçün yeni metodoloji imkanlar yaradır. Ritual və mərasim praktikalarının təhlili cəmiyyətlərin sosial və mədəni tarixinin öyrənilməsi üçün mühüm analitik material təqdim edir. Bu baxımdan Novruz yalnız folklor ənənəsi deyil, həm də tarixi yaddaşın və sosial təcrübənin simvolik ifadəsi kimi oxuna bilən mədəni fenomen hesab edilə bilər.

Beləliklə, Novruz mərasimlərinin kollektiv yaddaş, identiklik və mədəni irs kontekstində təhlili göstərir ki, bu bayram yalnız qədim ənənənin davamı deyil, həm də müasir cəmiyyətlərdə sosial və mədəni davamlılığın təmin edilməsində mühüm rol oynayan dinamik mədəni sistemdir. Bu yanaşma Novruzun "ənənədən irsə" transformasiyasını izah edən analitik model təqdim edir və qeyri-maddi mədəni irsin öyrənilməsi üçün yeni metodoloji perspektivlər açır.

**Ədəbiyyat:**


1. Assmann J. Cultural memory and early civilization: writing, remembrance, and political imagination. – Cambridge: Cambridge University Press, 2011.
2. Bell C. Ritual: perspectives and dimensions. – New York: Oxford University Press, 1997.
3. Boyce M. A history of Zoroastrianism. – Vol. 1. – Leiden: Brill, 1975.
4. Connerton P. How societies remember. – Cambridge: Cambridge University Press, 1989.
5. Durkheim É. The elementary forms of religious life. – New York: Free Press, 1995.
6. Eliade M. The sacred and the profane: the nature of religion. – New York: Harcourt Brace, 1959.
7. Frye R. N. The heritage of Persia. – Costa Mesa: Mazda Publishers, 2004.
8. Halbwachs M. On collective memory. – Chicago: University of Chicago Press, 1992.
9. Harrison R. Heritage: critical approaches. – London: Routledge, 2013.
10. Hobsbawm E., Ranger T. The invention of tradition. – Cambridge: Cambridge University Press, 1983.
11. Keller S. To Moscow, not Mecca: the Soviet campaign against Islam in Central Asia, 1917–1941. – Westport: Praeger, 2001.
12. Kirshenblatt-Gimblett B. Theorizing heritage // Ethnomusicology. – 1995. – C. 39, № 3. – S. 367–380.
13. Kirshenblatt-Gimblett B. Intangible heritage as metacultural production // Museum International. – 2004. – C. 56, № 1–2. – S. 52–65.
14. Nora P. Between memory and history: les lieux de mémoire // Representations. – 1989. – № 26. – S. 7–24.
15. Nora P. Les lieux de mémoire: la République. – Paris: Gallimard, 1984.
16. Rasulzade A. Azərbaycan xalqının milli bayramları. – Bakı: Elm, 1990.
17. Smith L. Uses of heritage. – London: Routledge, 2006.
18. Turner V. The ritual process: structure and anti-structure. – Chicago: Aldine, 1969.
19. YUNESKO. Nowruz, international day of Nowruz [Elektron resurs]. – 2009.
20. YUNESKO. Novruz, Nowrouz, Nooruz, Navruz, Nauroz, Nevruz. Representative List of the Intangible Cultural Heritage of Humanity [Elektron resurs]. – 2009.
21. Yolçuyev N. Novruz mərasimləri və xalq təqvim ənənələri. – Bakı, 2009.
22. Yoloğlu O. Türk dünyasında Novruz ənənələri. – Ankara, 2013.
23. Əlizadə A. Azərbaycan xalq mərasimləri və Novruz. – Bakı, 2018.
24. Аханчи П. А. Нарративы церемонии Новруз в коллективной памяти шушинцев // Türk xalqlarının mərasim sistemində Novruzun yeri: Beynəlxalq elmi konfransın materialları (Bakı, 10–11 mart 2022-ci il). – Bakı, 2023. – S. 50-65.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

*Kitab* ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300